# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 471 Bakı şəhəri, 25 dekabr 2023-cü il**

***“Azərbaycan Respublikasında qiymətli metallarla əməliyyatların aparılması və əqdlərin bağlanması Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 25 oktyabr tarixli 157 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Qiymətli metallar və qiymətli daşlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 966-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikasında qiymətli metallarla əməliyyat-ların aparılması və əqdlərin bağlanması Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 25 oktyabr tarixli 157 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 874; 2009, № 7, maddə 610; 2016, № 11, maddə 1961) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Preambulada “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin 2-ci bəndinin icrasını təmin etmək məqsədilə” sözləri “Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq,” sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasında qiymətli metallarla əməliyyatların aparılması və əqdlərin bağlanması Qaydaları” üzrə:

2.1. 3.11-ci və 3.15-ci bəndlərdə “Maliyyə Bazarlarına Nəzarət Palatasının” sözləri “Mərkəzi Bankın” sözləri ilə əvəz edilsin;

2.2. 4.1-ci bənddə “Maliyyə Bazarlarına Nəzarət Palatası” sözləri “Mərkəzi Bankı” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti .-2023.- 28 dekabr, № 285.- S.11.